**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№310/5** **3 may 2019-cu il**

**Dələduzluq risklərinin qiymətləndirilməsi üzrə metodik vəsaitin hazırlanması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2018-ci il üzrə iş planının 1.8.6-cı "Dələduzluq risklərinin qiymətləndirilməsi üzrə metodik vəsaitin hazırlanması" bəndinin icrası ilə əlaqədar Palatanın Şurası yanında Şəffaflığın təminatı, dempinq və haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin sədri, sərbəst auditor Üzeyir Fətiyev tərəfindən hazırlanmış və Auditorlar Palatasında 2019-cu il 16 yanvar tarixində keçirilmiş "Dəyirmi masa"da auditorların iştirakı ilə müzakirə edilərək, göstərilən irad və təkliflər nəzərə alınaraq yenidən işlənmiş metodik vəsaitin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Dələduzluq risklərinin qiymətləndirilməsi üzrə metodik vəsait" təsdiq edilsin (əlavə olunur).
2. Palatanın Auditin təşkili, hesabatlılıq və təhlil şöbəsinə tapşırılsın ki, on gün müddətində "Dələduzluq risklərinin qiymətləndirilməsi üzrə metodik vəsait"in tətbiq edilməsi məqsədilə auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
3. Palatanın Kadr hazırlığı şöbəsinə (E.Behbudova) və Palatanın Şurası yanında Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitəyə (A.Qurbanov) tapşırılsın ki, "Dələduzluq risklərinin qiymətləndirilməsi üzrə metodik vəsait"in 2019-cu il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramına daxil edilməsi təmin edilsin.
4. Palatanın Şurası yanında Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri N.Talıbova tapşırılsın ki, "Dələduzluq risklərinin qiymətləndirilməsi üzrə metodik vəsait"in "Audit.Qanunvericilik və normativ sənədlər toplusu"nun onuncu cildinə daxil edilməsi təmin edilsin.
5. Bu qərarın və "Dələduzluq risklərinin qiymətləndirilməsi üzrə metodik vəsait"in mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.
6. "Dələduzluq risklərinin qiymətləndirilməsi üzrə metodik vəsait"in müəllifi Ü.Fətiyevə təşəkkür elan edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**